# Quruculuğun coğrafiyası

## 300 kilometr yol, 21 təhsil ocağı, 19 səhiyyə mərkəzi



**Tariximizin ən ağrılı səhifələrindən biri olan Qarabağ həsrəti artıq geridə qalıb. 2020-ci ildə qazanılan şanlı Zəfər təkcə torpaqlarımızın azad olunması deyil, həm də Böyük qayıdışın başlanğıcı oldu. İllərin sükutundan sonra regionda torpaqlar dirçəlir, yaşayış bərpa edilir.**

Dövlət tərəfindən həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın əsasını təşkil edir və artıq bu proses real nəticələr verməyə başlayıb. Yol infrastrukturundan tutmuş məktəb və xəstəxanalara, yaşayış komplekslərindən enerji təchizatına qədər atılan hər addım, icra olunan hər layihə doğma torpaqlara işıq və ümid verir, gələcək qurur. Bütün dünya görür ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük qayıdış ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının əsas sütunlarındandır. Beş milli prioritetdən biri kimi qəbul olunan bu qayıdış təkcə məcburi köçkünlərin doğma torpaqlarına dönməsi deyil, həm də bölgənin tamamilə yenidən dirçəldilməsi deməkdir. Müasir infrastruktur yaradılır, yeni yollar, enerji xətləri, sosial obyektlər və yaşamaq üçün əlverişli şərait qurulur, şəhərciklər tikilir, kəndlər salınır. Hər daşında tarix, hər nəfəsində Vətən həsrəti olan bu torpaqlarda indi həyat qaynayır. Proses təkcə regional dirçəliş deyil, həm də Azərbaycanın bir dövlət kimi gücünü, iradəsini və gələcəyə olan inamını əks etdirən böyük bir qayıdışdır.

Bu günlər İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) əməkdaşları "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasının monitorinq və qiymətləndirilməsi çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfər ediblər. İİTKM-in nümayəndə heyəti tərəfindən Ağdam şəhəri, Ağdam rayonunun Xıdırlı kəndi, Xocalı rayonunun Təzəbinə və Xanyurdu kəndləri, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsi, Ağdərə rayonunun Həsənriz və Vəngli kəndləri, Kəlbəcər şəhəri, Laçın şəhəri, Laçın rayonunun Sus və Bəylik kəndləri, Qubadlı rayonunun Mahruzlu və Zilanlı kəndləri, Zəngilan şəhəri, Zəngilan rayonunun Ağalı, Cahangirbəyli və Məmmədbəyli kəndlərində icra olunan tikinti, yenidənqurma və bərpa işlərinə, həmçinin kommunikasiya, infrastruktur və digər obyektlərə yerində baxış keçirilib. Eyni zamanda nümayəndə heyəti Ağdam Sənaye Parkı, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı, "Qozlukörpü" və "Çaykənd" su-elektrik stansiyaları, "Təkəqaya" və "Ağçay" kiçik su-elektrik stansiyaları, "Şəfəq" Günəş-Elektrik Stansiyası və Cəbrayıl rayonunda yerləşən "Tingçilik və Təlim-Tədris Mərkəzi"ndə görülmüş işlərlə yaxından tanış olub.

İİTKM nümayəndələrinin səfəri zamanı əldə olunan təəssüratlar bir daha göstərdi ki, Böyük qayıdış kağız üzərindəki plan deyil, bölgədə real bərpa işləri həyata keçirilir. İnfrastrukturun qurulması və sənaye imkanlarının genişləndirilməsi ilə paralel əhalinin mərhələli şəkildə geri dönüşünə də şərait yaradılır. Əsas məqsəd keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını təmin etmək və onların rahat, təhlükəsiz şəkildə məskunlaşmasıdır. Fakt görülən işlər nəticəsində təkcə 2025-ci ilin iyuluna qədər 15 mindən çox insan doğma torpaqlarına qovuşub. Bu, Böyük qayıdışın real nəticələrindən yalnız biridir. Hazırda burada 50 min nəfərdən artıq əhali yaşayır. Bu rəqəmlər hər birimizin qürur mənbəyidir. Çünki bu, yalnız qayıdış deyil, həm də torpaqlarımızda yeni nəfəs, yeni həyat deməkdir.

2025-ci ilin birinci yarısına olan bu məlumatlar prosesin necə genişmiqyaslı və sistemli şəkildə irəlilədiyini bir daha nümayiş etdirir. Azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri, eyni zamanda sosial infrastrukturun yaradılması istiqamətində görülən tədbirlər insanların gündəlik həyatına birbaşa təsir edir. Dövlət proqramı çərçivəsində bir sıra əhəmiyyətli layihələr icra olunub. Artıq 1 ali, 14 ümumtəhsil və 6 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bu təhsil ocaqları nəinki gənc nəsil yetişdirəcək, həm də bölgənin intellektual potensialının formalaşmasında mühüm rol oynayacaq.

Sağlam gələcək sağlam bünövrədən başlayır. Buna görə də səhiyyə infrastrukturunun yaradılması Böyük qayıdışın əsas istiqamətlərindən biridir. Yeni tikilən xəstəxanalar, tibb məntəqələri və müasir tibbi avadanlıqlarla təchiz olunmuş müəssisələr əhalinin keyfiyyətli tibbi xidmətə əlçatanlığını təmin etməklə yanaşı, bölgələrə peşəkar tibbi kadrların cəlb olunması və gələcək fəaliyyətləri üçün şərait yaradır. 19 səhiyyə müəssisəsinin fəaliyyətə başlaması, o cümlədən 2 xəstəxana, 6 ailə sağlamlıq mərkəzi, 5 həkim məntəqəsi, 4 modul tipli xəstəxana və 1 poliklinika deyilənlərin sübutudur. Səhiyyə ilə bağlı görülən işlər işğaldan azad olunmuş ərazilərdə yaşayan və buraya qayıdacaq əhali üçün etibarlı tibbi xidmətin təminatından xəbər verir.

Ərazilərin fiziki və iqtisadi birləşdirilməsi isə keyfiyyətli yol infrastrukturu ilə mümkün olur. 2025-ci ilin birinci yarısında 300 kilometrdən artıq avtomobil yolunun tikintisi tamamlanıb. Bu yollar təkcə məntəqələri bir-birinə bağlamır, həm də insanları doğma yurdlarına, öz köklərinə qovuşdurur. Onlar bölgəyə iqtisadi nəfəs gətirir, investisiyaların və xidmətlərin axınını təmin edir, kənd təsərrüfatının, sənayenin və turizmin inkişafına təkan verir, regionun potensialını üzə çıxarır. Yol infrastrukturu sayəsində həm yerli əhali, həm də sahibkarlar üçün yeni imkanlar yaranır, bazarlara çıxış asanlaşır.

Bütün bu sadalananlar Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgəsində güclü və dayanıqlı həyat mühitinin yaradıldığını sübut edir. Böyük qayıdış sadəcə əhalinin doğma yurdlarına qayıdışı deyil, həm də mədəniyyətin, tarixin, iqtisadiyyatın və sosial həyatın yenidən dirçəldilməsidir. Bu gün səslənən rəqəmlər sabahın reallıqlarıdır. Və bu reallıqlar göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda həyat planlı, düşünülmüş və möhkəm təməl üzərində qurulur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***